**UOT 008**
**https://doi.org/10.52094/2221-7584.2025.37.71**

**Əsmər Tağızadə Yusif qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**magistrant**
**esmerabaszade@gmail.com**

# GENDER ƏSASLI ZORAKILIĞIN QARŞISININ ALINMASI VƏ ONUNLA MÜBARİZƏ

**Xülasə:** Tədqiqat işində müasir dövrdə gender və məişət zorakılığı, yaratdığı problemlər və onların səbəbləri araşdırılır. Tədqiqatın məqsədi bu problemlərin aşkar edilib müvafiq həll yollarının öyrənilməsidir.

**Açar sözlər:** gender zorakılığı, məişət zorakılığı, gender ayrı-seçkiliyi.

## Giriş

Gender dedikdə kişi və qadınların ictimai həyatın siyasi, iqtisadi, mədəni və digər sahələrində bərabərliyi nəzərdə tutulur. Həm dini, həm də ümumbəşəri insan haqq və hüquqları baxımından hər iki cinsdən olanların haqlarının qorunması və möhkəmləndirilməsi, qadın və kişilərin bu hüquqlardan istifadə etməsi hər bir dövlətin, eləcə də Azərbaycan Respublikasının yürütdüyü gender siyasətinin tərkib hissəsi olmalıdır. Bəs, zorakılıq nədir? Zorakılıq insanın iradəsinə zidd olaraq ona qarşı edilən zərərverici amildir. Gender əsaslı zorakılıq nədir? Təəssüf ki, qanunvericiliyimizdə bu ifadəyə açıqlıq gətirilməmişdir, ancaq “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən burada “məişət zorakılığı” anlayışına belə izah verilmişdir: Məişət zorakılığı – qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşamaqlarından sui-istifadə etməklə, şəxslərin birinin digərinə qəsdən fiziki və ya mənəvi zərər vurmasıdır. Qeyd edək ki, gender əsaslı zorakılıq daha böyük aspektli bir anlayışdır. Beləki, məişət zorakılığı dedikdə məişət şəraiti bir olan şəxslər, gender əsaslı zorakılıq dedikdə isə eyni məişəti paylaşmayan şəxslər arasında olan zorakılıq da başa düşülə bilər. Qeyd etdiyimiz kimi qanunvericilikdə “gender əsaslı zorakılıq” anlayışı yoxdur, ancaq genderə (cinsə) əsaslanan (əlavə olaraq qeyd edim ki, “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, gender

dedikdə məhz başqa gender kimlikləri yox, sırf kişi və qadın anlayışları nəzərdə tutulur) zorakılıq cinsinə görə şəxsin zorakılığa məruz qalmasıdır.

Həm gender, həm də məişət əsaslı zorakılığın 4 növü vardır.

- Fiziki zorakılıq – şəxslərdən birinin digərinə qəsdən fiziki təzyiq göstərməsi, yəni zor tətbiq etməklə təhlükəsizliyini pozması, döyməsi, sağlamlığına zərər vurması, işgəncə verməsi, azadlıq hüququnu məhdudlaşdırması;
- Cinsi zorakılıq – şəxslərdən birinin digərini onun iradəsi əleyhinə cinsi xarakterli hərəkətlərə məcbur etməsi;
- İqtisadi zorakılıq – şəxslərin birinin digərini onun mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum etməsinə, iqtisadi asılılıq yaratmasına, belə asılılığı saxlamasına və ya ondan sui-istifadə etməsinə yönəlmiş hərəkətləri;
- Psixoloji zorakılıq – şəxslərin birinin digərinə qəsdən psixi təzyiq göstərməsi və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətləri etməsi nəzərdə tutulur.

**Əsas Hissə**

Gender bərabərliyinə nail olmaq davamlı inkişafın zəruri komponentlərindən biridir. Bu balansın pozulması təkcə sosial problem yox, həm də böyük iqtisadi problemdir. Dünyanın əmək qabiliyyətli əhalisinin yarısını təşkil edən qadınlar tam iqtisadi potensialını nümayiş etdirə bilsə, iqtisadiyyat bundan kifayət qədər devidend əldə edəcəkdir. Əgər qadınlar əmək bazarında kişilərlə eyni hüquqlara malik olsalar, qlobal illik ÜDM 2025-ci ilə qədər 28 trilyon ABŞ dolları arta bilər ki, bu da ümumi artımın 26% olması deməkdir. Gender bərbərliyinə nail olunmaması investisiya və əhalinin artımına da təsir göstərir ki, bu da iqdisadi multiplikatorların artımına maneə olur. Qadınları sahibkarlıq və özünüməşğulluq fəaliyyətləri üzrə həvəsləndirmək, bu sahədə onların bilik və bacarıqlarıınn artırılması, cəlb olunan qadınların əhatə dairəsinin genişləndirilməsi məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 2021-ci il üzrə özünüməşğulluq proqramı çərçivəsində işsiz şəxslərin kiçik sahibkarlıq fəaliyyətlərini formalaşdırılmalarına dəstək istiqamətində də işlər görülmüşdür. 2021-ci il ərzində ölkə üzrə özünüməşğulluq proqramına cəlb olunmuş 16232 (on altı min iki yüz otuz iki) nəfərdən 4408-i (dörd min dörd yüz səkkiz) qadınlardan ibarət olmuşdur. Həmçinin 446 (dörd yüz qırx altı) sağlamlığı məhdud qadın isə işlə təmin olunmuşdur. Əmək bazarındakı nəticələr onu göstərir ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar, xüsusilə orta sahibkarlıq

subyektləri (iri sahibkarlıqla məşğul olanlar arasında qadın sahibkarlar təəssüf ki, yoxdur) arasında qadınların təmsilçiliyi azdır. Bu onu deməyə dəlalət verir ki, qeyri-dövlət sektorunda qadınların məşğulluq səviyyəsinin artırılması istiqamətində fəaliyyət davam etdirilməlidir. Özünüməşğulluq çərçivəsində yeni proqramlar, təlimlər hazırlanmalı və qadınlar onlara mümkün qədər çox cəlb olunmalıdır.

Sosial-iqtisadi sahədə gender ayrı-seçkiliyinin aradan qaldırılması ümumi inkişaf üçün vacib amildir. Azərbaycanda qadınların iqtisadi təşəbbüskarlığının artırılması, onların kiçik və orta sahibkarlıqda geniş təmsilçiliyi bu problemin həll olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Qadınların əmək bazarında kişilərlə bərabər hüquqlarının olmasına şəraitin yaradılması onların idarəetmə, biznes və hakimiyyət strukturlarında daha geniş təmsil olunmasını şərtləndirir ki, burada da əsas məqsəd qadınlarda özünəinam, özünəgüvən hissini artırmaq, həm öz icmalarına, həm də cəmiyyətə töhfə verə bilmələri üçün şərait yaratmaqdır. Dövlət Statistika Komitəsinin məlumatına görə 2024-cü il üçün ölkə əhalilisinin sayı 10180.8 nəfər təşkil edir ki, onlardan 5113.6 nəfəri qadınların payına düşür. 2021-ci ilin ilkin məlumatına əsasən işsizlərin ümumi sayının 57,7%-ni qadınlar (182,1 min nəfər) təşkil edir. Eyni zamanda qadınlar arasında işsizlik səviyyəsi ümumi respublika üzrə 7,0% səviyyəsində (kişilər arasında-4,9%) müşahidə edilir. Dünya ekosisteminin tərkib hissəsi kimi Azərbaycanda da əmək bazarında gender balansının qorunması üçün müxtəlif tədbirlər görülür. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 16-cı maddəsinin birinci hissəsində göstərilir ki, "əmək münasibətlərində vətəndaşlığına, cinsinə, irqinə, dininə, milliyyətinə, dilinə, yaşayış yerinə, əmlak vəziyyətinə, ictimai-sosial mənşəyinə, yaşına, ailə vəziyyətinə, əqidəsinə, siyasi baxışlarına, həmkarlar ittifaqlarına və ya başqa ictimai birliklərə mənsubiyyətinə, qulluq mövqeyinə, həmçinin işçinin işgüzar keyfiyyətləri, peşəkarlıq səriştəsi, əməyinin nəticələri ilə bağlı olmayan digər amillərə görə işçilər arasında hər hansı ayrı-seçkiliyə yol verilməsi, həmin amillər zəmnində bilavasitə və ya dolayısı ilə imtiyazların və güzəştlərin müəyyən edilməsi, habelə hüquqların məhdudlaşdırılması qəti qadağandır".

Gender bərabərliyinin əmək münasibətləri sahəsində də təmin edilməsi istiqamətində qanunvericiliyin təkmilləşdirilməsi prioritet məsələ olaraq gündəmdə olmuşdur. Bu sahədə ailə öhdəliyi olan işçilərin valideynlik vəzifələrinin həyata keçirilməsində bərabər təminatların müəyyən edilməsi və qadınların məşğulluq imkanlarının genişləndirilməsi kimi mövzular media və vətəndaş cəmiyyəti də daxil olmaqla müxtəlif səviyyələrdə müzakirələrin

predmeti olmuşdur. Qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı ən çox dəstəklənən təkliflər atalar üçün ödənişsiz məzuniyyət hüququnun müəyyən edilməsi və qadın əməyinin tətbiqi qadağan edilən iş yerlərinin sayının azaldılması olmuşdur. Qeyd edək ki, hər iki məsələ ölkəmiz tərəfindən ratifikasiya edilmiş beynəlxalq sənədlərlə tam uzlaşır. Qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı məsələlərdən biri də qadın əməyinin tətbiqi qadağan edilən iş yerlərinin (təxmini olaraq 700-ə yaxın iş yeri) siyahısına yenidən baxılması və bu iş yerlərinin sayının azaldılması məsələsidir. BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması üzrə Komitəsinin tövsiyələrinə əsasən qadınların məşğulluq imkanlarının genişləndirilməsi və qadınların daha yüksək əmək haqqı ödənilən sahələrdə çalışmalarının təmin edilməsi məqsədilə AR Əmək Məcəlləsində, eləcə də Məcəllədən irəli gələn digər normativ hüquqi aktlarda dəyişikliklər edilməsi ilə bağlı layihələr hazırlanmışdır.

Dünyada elm və təhsil sahəsində kişilərlə barabər qadınların da müxtəlif sahələr üzrə bilik və bacarıqlarını nümayiş etdirməsinə baxmayaraq burada da kişilərin üstün olması özünü biruzə verir. UNESCO-nun 2021-ci ilin "Elm Haqqında Hesabatı"ndakı təhlillərə nəzər salsaq burada maraqlı göstəricilərlə qarşılaşmaq mümkündür. Belə ki, rəqəmsal informasiya texnologiyaları, fizika, riyaziyyat, mühəndislik ixtisasları üzrə qadınlar kişilər ilə müqayisədə daha az təmsil olunurlar. Qadın tədqiqatçılarının sayında da azlıq var və onların əmək haqları da kişilər ilə müqayisədə aşağıdır. Ümumilikdə götürdükdə isə dünya qadınlarının cəmi 22%-i süni intellektlə məşğul olan mütəxəssislərdir. Bu da dünyanın inkişaf etmiş ölkələrinin payına düşür. Lakin buna baxmayaraq, dünya elmi üzrə qadınların rolu nəzərə çarpacaq dərəcədədir: Belə ki, say göstəricilərinə görə dünyada qadın bakalavr və magistr məzunları – 53%, qadın fəlsəfə doktorları – 33%, ümumiyyətlə elmlə məşğul olan qadın tədqiqatçılar – 55%, texnologiya sahəsində vençur kapitalı üçün startaplara rəhbərlik edən qadınların nisbəti – 2% təşkil edir. Azərbaycanda təhsil sahəsindəki gender təminatları ilə əlaqədar Qanunun 13-cü maddəsinə əsasən dövlət kişi və qadınların təhsil hüququnun həyata keçirilməsi üçün bərabər imkanların yaradılmasına təminat verir, mülkiyyət növündən asılı olmayaraq, bütün təhsil müəssisələrinə qəbulda, tələbələrin təqaüdlə təmin olunmasında, tədris planının seçilməsində və biliyin qiymətləndirilməsində bərabər imkanlar yaradır. Qanunda həmçinin dərsliklərin gender bərabərliyi prinsipinə əsaslanaraq hazırlanması ilə bağlı tələb vardır. Dayanıqlı İnkişaf Məqsədlərinin təhsillə bağlı olan 4-cü məqsədində 2030-cu ilədək bütün qızların və oğlanların,

qadınların və kişilərin əlçatan və keyfiyyətli təhsil almalarını təmin etmək hədəf kimi müəyyən edilmişdir. Azərbaycanda kişilərlə bərabər qadınlar da təhsilin bütün pillələrində fəal iştirak edir və gələcək karyeraları istiqamətində davamlı göstəricilərlə irəliləyirlər.

Gender mexanizmlərinin əlçatanlığına nail olmaq üçün regionlarda Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin yaradılması daim diqqət mərkəzində olmuşdur. 2021-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və birinci vitse-prezident xanım Mehriban Əliyevanın iştirakı ilə İsmayıllı Uşaq və Ailələrə Dəstək Mərkəzinin açılışı olmuşdur. Ölkə rəhbərliyinin buradakı diqqəti və dəstəyi UADM-nin fəaliyyətinin daha da genişlənməsinə və gender bərabərliyinin təminatı mexanizmləri şəbəkəsinin genişləndirilməsinə fokuslanmış addımdır. 11 Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin fəaliyyəti zamanı müraciətlər qəbul olunmuş və təhlillər aparılmış, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının nümayəndələri, qeyri-hökümət təşkilatları, biznes nümayəndələri və sahibkarlarla birgə gender bərabərliyi, ailə və məişət zorakılığı ilə bağlı mövzularda maarifləndirmə işləri aparılmış, ailələrə səfərlər edilmiş, ilkin psixososial qiymətləndirmə işləri aparılmış, psixoloji dəstək göstərilmiş və müxtəlif layihələr icra olunmuşdur. Azərbaycanın müxtəlif regionlarında və rayonlarında çoxsaylı maarifləndirici tədbirlər, təlimlər, kurslar və seminarlar təşkil edilmişdir. Qaradağ və Sabunçu Rayon İcra Hakimiyyətləri və Şüvəlan UADM ilə birlikdə “açıq qapı” günləri keçirilmişdir. Tədbir zamanı 3 gün ərzində 186 ailə hüquqi, psixoloji və sosial yardımdan faydalanmışdır. “Açıq qapı” günləri çərçivəsində ümumilikdə 23 rayonda 904 ailə UADM-lər tərəfindən psixoloji və hüquqi xidmətlərdən faydalanmışdır. UADM-lər tərəfindən təşkil edilmiş “Ailədən-ailəyə” tədbiri çərçivəsində 116 ailə tərəfindən 429 aztəminatlı ailəyə yardım edilmişdir. Bu zaman qadınları narahat edən məsələlər dinlənilmiş, problemin həlli ilə bağlı müxtəlif xidmətlər göstərilmiş, maarifləndirmə işləri aparılmışdır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Gənclərin İnkişafı və Karyera Mərkəzinin Azərbaycanın müxtəlif rayonlarında yerləşən nümayəndəlikləri ilə birgə “Bərabər hüquqlarımız” adlı layihə hazırlamışdır. Layihə zamanı “Gender və insan hüquqları” mövzusunda təlim həyata keçirilmişdir. Təlimdə gender bərabərliyi, bu sahədə mövcud olan yerli və beynəlxalq qanunvericilik haqqında məlumat verilmişdir. Mərkəzi icra hakimiyyəti orqanları, ali təhsil müəssisələri və beynəlxalq tərəfdaşların iştirakı ilə “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikası Qanununun qəbul edilməsinin 15 illiyinə həsr edilmiş “Dövlət qulluğunda gender

bərabərliyi üzrə Kurikulum" adlı vəsaitin təqdimatı olmuş, gender bərabərliyi üzrə məsul şəxslər üçün "Gender Azerbaijan" elektron portalı yaradılmış, və "Ailə və bərabər inkişaf" jurnalı hazırlanmışdır. Tədbir zamanı ailə institutunun möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının mühafizəsi, gender bərabərliyinin təmin olunması istiqamətində qanunlar, islahatlar və dövlət proqramlarına əsasən yaradılmış gender komissiyanın fəaliyyətindən və məişət zorakılığı, zorakılıq qurbanlarına dəstək mexanizmindən ətraflı bəhs edilmişdir. Məişət zorakılığına qarşı mübarizə, zorakılığın səbəb olduğu mənfi hüquqi və sosial nəticələrin aradan qaldırılması, məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial müdafiəsi, habelə məişət zorakılığına səbəb olan hallarının yox edilməsi istiqamətində maarifləndirici söhbətlər aparılmışdır.

"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə əsasən Azərbaycanda gender bərabərliyi sahəsində müsbət tendensiyalar formalaşmağa başlayıb və bəzi hallarda bu trendlər qlobal göstəriciləri üstələyir. Belə ki, əvvəlki illərə nisbətən dövlətin idarə olunmasında və qərarların qəbul edilməsində qadınların təmsilçiliyinin artması müşahidə olunur. 2021-ci ildə inzibati vəzifələrə təyin edilmiş qadınların sayında 2020-ci ilə nisbətən artım özünü göstərir. 2021-ci ildə idarəetmənin müxtəlif sahələrində qadınların kişilərlə bərabər təmsilçiliyi tam təmin olunmasa da, bu sahədə müsbət mənada inkişaf mövcuddur. Əvvəlki illərlə müqayisədə dövlətin idarə olunmasında və qərarların qəbuletmədə qadınların təmsilçiliyi artmaqdadır. Qanunverici, icra və məhkəmə hakimiyyəti orqanlarındakı mövcud vəziyyət bunu qeyd etməyə dəlalət verir. Dövlət idarəçiliyində, qərarqəbuletmədə qadınların artması ictimai həyatın bütün sahələrinə öz müsbət təsirini göstərməkdədir. Dövlət orqanlarında, təşkilatlarda, bələdiyyələrdə, gender komissiyalarında gender məsələlərinə məsul şəxslərin müəyyən edilməsi, gender amilinin siyasətə daxil olunması, ənənəvi və sosial media vətəndaş cəmiyyətinin bu sahədə fəallaşması xüsusi əhəmiyyət daşıyır. Hüquq-mühafizə orqanlarında xidmət edən qadınların sayında da artım müşahidə olunur. Prokurorluq orqanlarında rütbə nəzərdə tutulmayan vəzifələrdə çalışan qadınlar ümumi işçi sayının 49 %-ni təşkil edir.

Səhiyyə sahəsində isə vəziyyət aşağıdakı kimidir:

| İllər | Qadın həkimlərin sayı | Qadın orta tibb işçilerinin sayı |
|---|---|---|
| 2020 | 20980 | 52917 |

| | | |
|---|---|---|
| 2021 | 20222 | 51956 |
| 2022 | 21267 | 50539 |
| 2023 | 21747 | 51048 |
| 2024 | 22261 | 52621 |

Müsbət hal olaraq deyə bilərik ki, profilaktik və maarifləndirici tədbirlərin nəticəsi olaraq 2021-ci ildə erkən nikahların sayında 267 nəfər azalma nəzərə çarpır. Lakin gender məsələləri ilə bağlı müəyyən problemlər də mövcuddur ki, bu problemlərin aradan qaldırılması üçün dövlətlə yanaşı, cəmiyyət də çalışmalıdır. Ən önəmlisi də qadınlara qarşı zorakılıq hallarına və ailələrdə qız uşaqlarına qarşı fərqli münasibətə son qoyulması üçün güclü maarifləndirmə işləri aparılmalıdır. Ölkənin ümumi təhsil və ali təhsil müəssisələrində məişət zorakılığının qarşısının alınması, məişət zorakılığı təhlükəsizliyinin aradan qaldırılması, bu kimi hallar zamanı növbəti atılacaq addımlar barədə, gender əsaslı zorakılıqla mübarizəyə həsr edilmiş tədbirlər, gender bərabərliyi, məişət zorakılığı, qadın və uşaqların hüquqlarının pozulması məsələlərinə dair mütəmadi tədbirlər keçirilməli, maarifləndirici söhbətlər aparılmalı və videoçarxlar hazırlanmalıdır.

Bununla bağlı ölkənin ali və orta ixtisas təhsili müəssisələrində fundamental və tətbiqi tədqiqatlar aparılır. Beləki, ATM-lərdə (Bakı Dövlət Universiteti, Dövlət İdarəçilik Akademiyası, Qərbi-Kaspi Universiteti, Xəzər Universiteti) Gender Araşdırmaları Mərkəzləri yaradılıb. 2002-ci ildən isə BDU-da Gender Araşdırmaları Mərkəzinin əsasında “Gender və tətbiqi psixologiya” kafedrası təşkil edilib. Ali təhsil müəssisələrinin bütün fakültələrində “Genderə giriş”, “Genderologiyanın əsasları” və gender məsələlərinə aid digər fənnlər tədris olunur. Gender bərabərliyi ilə bağlı seçmə fənnlər əksər ixtisaslar üzrə tədris planına daxil edilmişdir. Texniki təmayüllü ali təhsil müəssisələrində gender məsələləri ilə bağlı fənlərin tədrisinə hələ 2003-cü ildən başlanılmışdır. Burada gender ayrı-ayrı aspektlərdən hər ixtisasa uyğun olaraq tədris edilir. Universitetlərimizdə gender problemi ilə bağlı kurs işləri, buraxılış işləri yerinə yetirilir. Belə ki, “Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı” çərçivəsində ölkədə gender problemlərinin elmi müzakirəsinin, onların həlli üçün elmi yanaşmaların işlənib hazırlanmasının zəruriliyini nəzərə alaraq

elmi konfrans və seminarlar keçirilir. Bu tədbirlərdə və panel müzakirələrdə erkən nikah və onun fəsadları, qadına şiddət məsələləri, islam və digər dinlərdə gender problemləri də müzakirə edilir və mövcud problemlərin həlli üçün elmi yanaşmalar təqdim olunur. ATM-lər tələbələr, müəllimlər və işçilər üçün təlimlər, seminarlar və mühazirələr təşkil edir. Bu fəaliyyətlər gender əsaslı zorakılıq problemi haqqında məlumatlılığın artırılmasına, qurbanlara dəstək olmaq və zorakılığın qarşısının alınması bacarıqlarının öyrədilməsinə yönəldilə bilər.

Avropa İttifaqı tərəfindən maliyyələşdirilən, BMT-nin Qadınlar üzrə Agentliyi və BMT-nin Əhali Fondu tərəfindən həyata keçirilən “Avropa İttifaqı gender bərabərliyi naminə: Birlikdə gender stereotiplərinə və gender əsaslı zorakılığa qarşı” proqramı əsasında “Regional İnkişaf” İctimai Birliyi tərəfindən icra edilən “Genderə həssas məktəblərin təşviqi” layihəsi çərçivəsində cari ilin yanvarın 26-da Azərbaycan Respublikası Təhsil İnstitutu ilə əməkdaşlıq əsasında “Azərbaycanda genderə həssas təhsil sisteminin inkişaf perspektivləri” mövzusunda beynəlxalq konfrans keçirilib. 200-dən çox iştirakçının qatıldığı konfransın məqsədi genderyönümlü pedaqogika sahəsində beynəlxalq təcrübəni öyrənmək, aidiyyəti dövlət qurumlarının, beynəlxalq və qeyri-hökümət təşkilatlarının nümayəndələrinin, pedaqoji kadr hazırlayan ali təhsil müəssisələrinin və orta məktəb müəllimlərinin, müvafiq sahədə ekspertlərin iştirakı ilə əməkdaşlıq platforması yaratmaq və genderyönümlü təhsil mühitinin inkişafını təşviq etməkdir. Bundan başqa xarici universitetlərdən mütəmadi olaraq alimlər dəvət olunur. Onlar tələbələrə “Genderə giriş” fənnini bakalavriat pilləsində “Ailə və gender” psixologiyası fənnini tədris etməkdədirlər. Araşdırmalara görə, Azərbaycanda hər 3 kişidən biri fiziki zorakılıq törətdiyini və hər 3 qadından biri zorakılığa məruz qaldığını etiraf etmişdir. Günümüzdə bu kimi halların yaşanmaması və həlli yaşadığımız bu zamanda, sahib olduğumuz bu texnoloji imkanlar vasitəsilə daha əlçatandır. Mövcud xidmətlər üzrə mobil tətbiqlər, online çatlar, eləcə də zorakılıq hallarında siqnal ötürücüləri gender əsaslı zorakılıqla texnologiya vasitəsilə mübarizənin nümunələridir. Eyni zamanda texnologiyalar gender əsaslı zorakılıqdan zərərçəkmiş şəxslərin 860 qaynar xətt tipli xidmətlərə asan çıxışını təmin etmək üçün də istifadə edilə bilər. Bir sözlə texnologiyalar gender əsaslı zorakılıqda mövcud pəncərəni dəyişmək üçün müəyyən potensiala malikdir.

Həmçinin, Qadınlara Qarşı Zorakılıq üzrə Milli Sorğunun nəticəsinə görə, 15-59 yaşlı qadınların 24 faizi ailə üzvləri, yaxınları və ya partnyorları tərəfindən zorakılığa məruz qalıb. Bu, ümummilli problemdir və hökumətin

gündəmində əsas yer tutmaqdadır. Kişilər və oğlanların qadınlara qarşı zorakılıqla mübarizədə fəal iştirak etməsi bu problemin həllində önəmli rol oynayır. Kişilərin gender əsaslı zorakılığa qarşı fikirlərini açıq şəkildə bildirməsi, həm də cəmiyyətdə ənənəvi genderlərin rolu və patriarxal normalar haqqında təsəvvürlərin dəyişməsinə kömək edəcək.

Əldə olunan nəticələr bizi onu deməyə əsas verir ki, Azərbaycan Respublikası gender bərabərliyinin təmin edilməsi sahəsində iyirmi ildən artıq dövrü əhatə edən müsbət təcrübəyə malikdir.

Bu sahədə qanunvericilikdə müəyyən olunan dövlət təminatları son illərdə ictimai həyatın bütün sahələrində qadınların kişilərlə bərabər öz hüquq və azadlıqlarını reallaşdırması imkanlarını genişləndirmişdir. Kişi və qadınların cəmiyyətdə, siyasi həyatda, iş yerlərində, ailədə yerinin düzgün müəyyənləşdirilməsi xoşbəxt və firavan həyatın, sağlam ailə anlayışının, gözəl cəmiyyətin varlığı deməkdir. Şərqdə qadınların hüquqlarını tanıyan ilk demokratik ölkə olan Azərbaycan beynəlxalq təşkilatların qarşıya qoyduğu vəzifə və öhdəlikləri, eyni zamanda tövsiyələri davamlı yerinə yetirməklə kişi və qadınların bərabərhüquqlu səlahiyyətlərə, imkanlara və imtiyazlara malik olmasını dəstəkləyir, bununla da cəmiyyətin inkişafına əsaslı stimul vermiş olur.

## Ədəbiyyat siyahısı:

1. Heise, L. L. "Qadınlara Qarşı Zorakılıq: Davamlı Bir Problem". *The Lancet*, 353(9163)- 2019
2. BMT Qadınlar Təşkilatı "Kölgə Pandemiyası: COVID-19 Dönəmində Qadınlara Qarşı Zorakılıq." *BMT Qadınlar Təşkilatı*. - 2021
3. O'Neill, M. "Zorakılıqla mübarizədə gender sensitivliyi" *International Journal of Gender Studies*, 5(2), 123-134 – 2017
4. Tünay, İ. "Cinsiyyət və Zorakılığın Önlenmesi: Hukuki ve Sosyal Yaklaşımlar." Sosyal ve Beşeri Bilimler Dergisi, 12(3), 56-68, 2020
5. Azərbaycanda gender bərabərliyi və gender münasibətləri: mövcud vəziyyət və imkanlar kişilərin gender bərabərliyinə münasibətinə dair tədqiqatın nəticələri üzrə hesabat, Sosial Tədqiqatlar üzrə Beynəlxalq Mərkəz (STBM), Bakı – 2018
6. Süleymanova, F. "Zorakılıqla Mübarizə və Gender Perspektivi: Azərbaycan Konteksti." *Beynəlxalq Hüquq və Sosial Problemlər*, 7(2), 122-137 - 2017
7. Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının Qanunu / 10 oktyabr 2006-cı ildə qəbul edilmişdir (21 dekabr

2010-cu il və 29 dekabr 2024-cü il tarixlərində qanuna edilmiş əlavə və dəyişikliklər). – Bakı, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu

**Asmar Taghizade**

**PREVENTION OF AND FIGHT WITH GENDER-BASED VIOLENCE**

**Summary:** The research work examines contemporary issues of gender and domestic violence, the problems they create, and their underlying causes. The aim of the research is to identify these problems and explore appropriate solutions.

***Key words:*** gender violence, domestic violence, gender discrimination.

**Эсмер Тагизаде**

**ПРЕДОТВРАЩЕНИЕ И БОРЬБА С ГЕНДЕРНЫМ НАСИЛИЕМ**

**Резюме:** В исследовательской работе рассматриваются современные проблемы гендерного и бытового насилия, их последствия и причины. Цель исследования состоит в выявлении этих проблем и изучении соответствующих решений.

***Ключевые слова:*** гендерное насилие, бытовое насилие, гендерная дискриминация.